

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 186 (24.323)

*10 oktyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## İki ölkə arasındakı dostluq, qardaşlıq əlaqələri bütövlükdə Cənubi Qafqazda sülhün bərpasına təkan verəcək

### *Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda işgüzar səfərdə olub*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə oktyabrın 8-də Gürcüstana işgüzar səfərə gəlib.

Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili və digər rəsmi şəxslər qarşıladılar.

* * *



Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili oktyabrın 8-də Tbilisidə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "The Architect of Prosperity" – "Firavanlığın memarı" adlı fotosərgi ilə tanış oldular.

Dövlətimizin başçısına və Gürcüstanın Baş nazirinə sərgi ilə bağlı məlumat verildi. Qeyd olundu ki, Azərbaycanı müasir və iqtisadi cəhətdən çiçəklənən ölkəyə çevirən Ümummilli Liderə ehtiramın ifadəsi olan bu sərgi Ulu Öndərin bütün həyatını dövlətçiliyimizə və xalqımıza həsr etməsindən və ölkənin gələcək inkişafının əsasını necə müdrikliklə qoymasından bəhs edir.

Sərgidə Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə qayğısını, gənclərlə görüşlərini əks etdirən fotolar yer alıb. Ekspozisiyanın Azərbaycan-Gürcüstan münasibətlərinə həsr edilmiş guşəsində Ulu Öndər Heydər Əliyevin Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze, həmçinin Prezident İlham Əliyevin Baş nazir İrakli Qaribaşvili ilə görüşlərindən də fotoşəkillər nümayiş olunur.

* * *



Oktyabrın 8-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Gürcüstanın Baş naziri bəyanatla çıxış etdi.

**Baş nazir İrakli Qaribaşvilinin bəyanatı**

– Bizim çox hörmətli qonağımız, əziz dostumuz cənab İlham Əliyevi salamlayıram.

Cənab Prezident, Sizi Gürcüstanda görməyə şadam. Sizi və nümayəndə heyətinizi salamlayıram, Gürcüstana səfərə gəldiyinizə görə təşəkkür edirəm. Onu da demək istəyirəm ki, biz ənənəmizi davam etdiririk, tez-tez səfərlər edirik. Bir neçə ay bundan əvvəl mən Qəbələdə səfərdə idim. Cənab Prezident, orada mənə göstərilən çox səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm. Keçən il bu vaxt da biz Sizi Gürcüstanda qəbul edirdik. Mən çox şadam ki, səfərlərimiz tez-tez həyata keçir. Əlbəttə ki, mən bir neçə aydan sonra Azərbaycana növbəti səfərə gələcəyəm.

Biz cənab Prezidentlə çox məhsuldar görüş keçirdik, müzakirələr apardıq. Cənab Əliyev ilə biz hazırkı strateji tərəfdaşlığımızı və əməkdaşlığımızı müzakirə etdik. Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Bizim ölkələrimiz arasında əsrlər boyu dostluq və qardaşlıq münasibətləri olub. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfə verib. Bu dostluğun və qardaşlığın möhkəmləndirilməsində onun böyük xidmətləri var.

Biz əlbəttə ki, iqtisadi, ticari, enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığımızı müzakirə etdik. Azərbaycan Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biridir və ilk beşlikdə yer alıb. Bu il bizim ticarətimiz 15 faiz artmışdır. Ötən il rekord göstəricilərimiz olmuşdur. Yüklərin daşınması baxımından da həcm əhəmiyyətli dərəcədə artmışdır.

Deyə bilərəm ki, biz istənilən istiqamətdə – enerji, nəqliyyat, logistika, dəmir yolu və bütün digər sahələrdə əməkdaşlıq edirik. Biz, eyni zamanda Orta Dəhliz layihəsinin inkişafını və perspektivlərini müzakirə etdik. Bildiyiniz kimi, biz Azərbaycanla və Qazaxıstanla əlaqələndirilmiş şəkildə fəaliyyət göstəririk ki, həmin layihə uğurla inkişaf etsin. Dəmir yolu xətti layihəsi genişləndirilir. Magistral yollar, dəniz limanları – bunlar hamısı bizim gündəliyimizdədir.

Azərbaycan Gürcüstanla birlikdə çox böyük işlərə başlayıb. Biz də dəmir yolu xətlərimizi müasirləşdiririk və gələn ilin sonuna qədər bunu başa çatdıracağıq. Bununla da yüklərin həcmini iki dəfə artıra biləcəyik. Tezliklə biz Anakliya dəniz limanının inşasına başlayacağıq. Onun da yükaşırma qabiliyyəti 100 milyon tona bərabər olacaq. Eyni zamanda biz Şərq-Qərb avtomagistralının inşasını da başa çatdıracağıq. Biz Azərbaycanla istənilən istiqamətdə uğurla əməkdaşlıq edirik. Biz bir neçə ay ərzində növbəti tarixi layihənin genişləndirilməsini də qeyd edəcəyik. O layihə də uğurla başa çatacaqdır. Ona görə də bizim çox aydın perspektivlərimiz var. Gələcəyə baxışımız olduqca aydındır. Əminəm ki, Azərbaycanla bizim tərəfdaşlığımız və dostluğumuz uzunömürlü olacaq.

Əlbəttə ki, biz təhlükəsizlik məsələlərini – həm regionda, həm də qlobal müstəvidə cərəyan edən hadisələri müzakirə etdik. Hazırda vəziyyət kifayət qədər gərgindir.

Mən bir daha cənab Prezidentə onu da bildirdim ki, biz Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz Azərbaycana da təşəkkürümüzü bildiririk ki, Azərbaycan da, öz növbəsində, hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Onu da qeyd etdik ki, bizim böyük ümidlərimiz var ki, Azərbaycan və Ermənistan sülh sazişini imzalayacaq. Bu baxımdan da bizim Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı fikirlərimiz tam üst-üstə düşür. Ümidvarıq ki, bu bölgədə sülh davamlı olacaqdır və ölkələrimizin firavanlığına xidmət edəcəkdir, həm də Azərbaycan, Ermənistan və Gürcüstan xalqları üçün.

Biz burada – Gürcüstanda hər zaman qərəzsiz mövqeyə malik olmuşuq, biz bu gün də hazırıq ki, bu məsələyə töhfə verək. Biz istəyirik ki, bu məsələdə vasitəçilik edək və istənilən dostluq formatını təqdim etməyə hazırıq. Bizim gələcəyimiz dinc, sabit olmalıdır və Cənubi Qafqazın hər üç ölkəsi regional məsələləri özləri həll etməlidir.

Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, cənab Prezidentin atası mərhum Prezident Heydər Əliyevin bizim dostluğumuzun inkişafında müstəsna xidmətləri və töhfəsi olub, onun təməlini o qoyubdur. Biz burada Heydər Əliyevin 100 illiyinə həsr edilmiş sərgi ilə də tanış olduq. Mən fürsətdən istifadə edərək cənab Prezident İlham Əliyevi və Azərbaycan xalqını bu münasibətlə də təbrik edirəm.

Əziz dost, bir daha Sizi burada salamlayıram. Sizin ölkənizə sülh, inkişaf və uğurlar diləyirəm. Təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli cənab Baş nazir.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Tbilisi şəhərinin bu gözəl, füsunkar təbiətə malik guşəsində olmaq mənim üçün çox xoşdur və burada yaradılmış şərait də göz oxşayır. Cənab Baş nazirlə söhbət əsnasında mən qeyd etdim ki, Gürcüstanın bütün ərazisi təbiət nöqteyi-nəzərindən çox gözəldir. Ən böyük gözəllik və ən böyük sərvət isə gürcü xalqıdır.

Biz iki lider kimi ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələrini gücləndiririk, möhkəmləndiririk, öz səylərimizi əsirgəmirik. Cənab Baş nazir qeyd etdiyi kimi, bizim ənənəvi görüşlərimiz bu məqsədə xidmət edir ki, ölkələrimiz bir-birinə daha yaxın olsun, xalqlarımız bir-biri ilə daha da sıx dostluq etsin. Əsrlər boyu bizim xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşamışdır, bu gün də bu, belədir. Bu həm ölkələrimiz üçün vacibdir, eyni zamanda bölgə üçün, o cümlədən ilk növbədə Cənubi Qafqaz üçün çox vacib olan bir şərtdir.

*Ardı 2-ci səhifədə*

Fürsətdən istifadə edərək hörmətli cənab Baş nazir, Ulu Öndər Heydər Əliyevin xatirəsinə Gürcüstan hökuməti və xalqı tərəfindən göstərilən hörmətə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Qeyd olunduğu kimi, bu il ilboyu Azərbaycanda, bir çox ölkələrdə, o cümlədən Gürcüstanda Heydər Əliyevin 100 illiyi qeyd edilir. Bu gün burada nümayiş etdirilən sərgidə bir şəkil diqqətimizi daha çox cəlb etdi, Heydər Əliyev və Eduard Şevardnadzenin şəklidir. Onların dostluğunun çox böyük tarixçəsi var. Sovet dövründə onlar bir-birilə sıx təmasda idilər və o vaxt sovet Gürcüstanının, sovet Azərbaycanının rəhbərləri kimi xalqlarımızı daha da birləşdirmək üçün böyük səylər göstərmişdilər. Bu iki parlaq şəxsiyyət sovet dövründə də öz istədadı, öz cəsarəti və öz xalqlarına olan bağlılığı ilə fərqlənirdi. Tale elə gətirdi ki, onlar, təxminən, eyni vaxtda müstəqil Gürcüstana və müstəqil Azərbaycana rəhbərlik etməyə başladılar. Xalqlarımız üçün ən ağır dövrdə, – o acı və ağrılı günləri biz xatırlayırıq, – məhz onların liderliyi sayəsində həm Gürcüstan, həm Azərbaycan inamla müstəqilliyə doğru addımlamağa başlamışdır. Məhz onların fəaliyyəti nəticəsində müstəqil Gürcüstan, müstəqil Azərbaycan inkişaf etməyə başlamışdır.

Biz – onların davamçıları, bu gün onların yolu ilə gedirik. Təbii ki, bu gün Gürcüstan və Azərbaycan qat-qat daha inkişaf etmiş ölkələrdir. Ancaq çağırışlar, demək olar ki, eynidir, problemlər eynidir. Cənubi Qafqazda sülh hələ ki, tam bərqərar olunmayıb və bu gün cənab Baş nazirlə söhbət əsnasında, o cümlədən bu məsələyə də toxunduq. Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb. Baş nazir qeyd etdiyi kimi, biz hər zaman bir-birimizin ərazi bütövlüyümüzü, suverenliyimizi dəstəkləmişik və dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda xalqlarımızın bu və digər maraqlarını əks etdirən məsələlərdə bir-birimizi dəstəkləyirik və bir-birimizin yanındayıq. Ölkələrin ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi birmənalıdır.

Biz bu gün, eyni zamanda Ermənistan-Azərbaycan normallaşma prosesinə də toxunduq. Üç il bundan əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir, keçən ay bütün ölkə üzrə suverenliyini bərpa etmişdir. İndi isə biz Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq, – mən buna ümidliyəm, – o zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər və bir çox sahələr üzrə əməkdaşlıq çox uğurlu ola bilər, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, bütün bunlar, mümkündür. Sadəcə olaraq biz bundan məhrum idik, ona görə ki, Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında idi və təbii ki, bu vəziyyət imkan vermirdi ki, normallaşmaya doğru addımlar atılsın. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar.

Bildiyiniz kimi, bu gün bir neçə ölkə və eyni zamanda bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışırlar. Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi. Mən cənab Baş nazirə minnətdaram ki, o da bu sahədə mümkün olan vasitəçilik imkanlarını ortaya qoyur. Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər.

O ki qaldı, bizim digər sahələrdəki əməkdaşlığa, cənab Baş nazir artıq qeyd etdi, həm enerji, həm nəqliyyat sahəsində çox böyük planlarımız var, əlbəttə ki, böyük uğurlarımız var. Həyata keçirilmiş layihələr haqqında danışmaq, hesab edirəm ki, əbəsdir, bunu hər kəs bilir. Sadəcə olaraq onu demək istəyirəm ki, bizim birgə həyata keçirdiyimiz enerji və nəqliyyat layihələri bu gün bir çox ölkələrin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

Həmçinin gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Biz böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilərik. Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da, əlbəttə, Orta Dəhlizin güclənməsinə xidmət göstərəcək.

Energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün bizi birləşdirən "Yaşıl enerji dəhlizi" layihəsidir. Burada da biz – yenə də Gürcüstan və Azərbaycan – iki qardaş ölkə Avropa ölkələri ilə sıx əməkdaşlıq edirik və yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Əminəm ki, ondan sonra biz konkret işlərə start verə bilərik. Böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm bizim, həm də ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyini gücləndirəcək.

Bir sözlə, bu gün Gürcüstanın və Azərbaycanın birlikdə və digər qonşu ölkələrlə birgə icra etdiyi layihələr böyük məna daşıyır, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya üçün və biz buna hazırıq. Bizdə həm güclü siyasi iradə var, artıq yaradılmış güclü infrastruktur var. Ən əsas amil isə Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır.

Sözümün sonunda bir məsələni də qeyd etmək istərdim. Mən Gürcüstana tez-tez gəlirəm və hər dəfə gələndə Gürcüstanın yeni bir guşəsi ilə tanış oluram. Hər dəfə həm Gürcüstanın gözəl təbiətinə bir daha heyran oluram, eyni zamanda Gürcüstanda gedən tərəqqi prosesinə də çox böyük maraqla baxıram və sevinirəm. Cənab Baş nazirin rəhbərliyi ilə Gürcüstan inamla inkişaf edir, Gürcüstanda ictimai-siyasi sabitlik tam bərqərar olunub. Bu sabitliyin mənbəyi Gürcüstanda yaşayan vətəndaşların hökumətə olan dəstəyidir. Bu sabitlik və hökumətin aydın gələcəyə yönəlmiş baxışları imkan verir ki, bir çox önəmli layihələr icra edilsin, imkan verir ki, həm iqtisadiyyat artsın, infrastruktur layihələri icra olunsun və insanların rifah halı ildən-ilə yaxşılaşsın. Biz Gürcüstanın dostu kimi buna ürəkdən sevinirik.

Əldə edilmiş nailiyyətlər münasibətilə Sizi, cənab Baş nazir, bizim bütün gürcü qardaşlarımızı təbrik edirik. Qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirərək, cənab Baş nazir, Sizi Azərbaycana dəvət edirəm. Təşəkkür edirəm.

* * *

Oktyabrın 8-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri oktyabrın 8-də başa çatıb.

Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Gürcüstanın Baş naziri İrakli Qaribaşvili yola saldı.

**AZƏRTAC**

*2023-cü il "Heydər Əliyev İli"dir*

# Heydər Əliyev irsi Azərbaycanın uğurlu inkişafının mənbəyidir



*2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə və bir sıra xarici ölkələrdə yüksək səviyyədə qeyd edilir. Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır.*

Ümummilli Lider Heydər Əliyev ölkəmizin çoxəsrlik dövlətçilik ənənələrinin əsasında yetişib formalaşmış görkəmli dövlət xadimlərindəndir. Azərbaycan tarixinə müstəqillik kimi parlaq və tarixi bir səhifə yazmış Xalq Cümhuriyyəti rəhbərlərinin Azərbaycan idealı Heydər Əliyevin dövlətçilik təliminin əsas mahiyyəti və hədəflərini təşkil etmişdir.

Ulu Öndər Heydər Əliyev iki tarixi dövrdə – həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etmişdir. O, sovet hakimiyyəti illərində kommunist imperiyasının daxilindən çökməkdə olduğunu hamıdan daha çox hiss etdiyi üçün xalqını gələcək dövlət müstəqilliyinə hazırlamaq missiyasını qabaqcadan böyük bacarıqla həyata keçirmişdir. XX əsr sovet rəhbərlərinin əsas idealı mövcud sistemi qorumaqdan ibarət idi. Ulu Öndər Heydər Əliyev isə cəmiyyəti yeniləşdirməklə inkişaf etdirmək vəzifəsini həyata keçirmişdir. Onun fəaliyyəti mövcud sistem daxilində dəyişiklik uğrunda apardığı mübarizə müstəqillik idealına xidmətə doğru yönəlmişdir. Bu mənada, **dahi şəxsiyyət Heydər Əliyev müstəqil dövlətçilik ideyasının banisidir. O, milli istiqlal konsepsiyasına əsaslanmaqla dövlət müstəqilliyi uğrunda mübarizə aparmışdır.** Bu dahi şəxsiyyət sovetlər dövründə formalaşdırdığı milli istiqlal idealını həm də qətiyyətlə ideyadan real həyata keçirmək vəzifəsini də gerçəkləşdirmişdir. Görkəmli dövlət xadimi Sovet dövlətinin mövcud olduğu dövrdə, 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında sovet bayrağı yerində öz ölkəsinin milli dövlətçilik rəmzi olan üçrəngli bayrağını ucaltmağa nail olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin irsində, dövlətçilik təlimində müstəqil dövlət quruculuğu istiqamətində görülən işlər mühüm yer tutur. Ümummilli Liderin dövlətçilik düşüncəsinin əsasını müstəqillik ideyası təşkil edir. O, müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünüdərkinə, öz mənliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünəri ilə çalışırdı. O yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmlə mübarizə aparırdı. Ulu Öndər Heydər Əliyev milli dövlətçilik ideyasını məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, qurub-yaratmağı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti xalqın siyasi varlığı ilə, dövlətlə, dövlətçiliklə o dərəcədə sıx surətdə bağlı idi ki, onun ideyaları, irsi ictimai-iqtisadi həyatın, dövlət quruculuğunun bütün sahələrinə dərindən nüfuz etmişdi.

Ümummilli Lider Heydər Əliyevin həm nəzəri, həm də praktik ideyaları bu gün və sabah üçün də aktualdır və bir sıra əməli fəaliyyət sahələrində tətbiq olunmaqdadır.

Ulu Öndər Heydər Əliyev, sözün hər mənasında, böyük ömür yaşadı. Lakin onun ideyalarının ömrü, qurduqlarının və yaratdıqlarının ömrü daha böyükdür. Onun ideyalarının və əməllərinin yaşanmasına heç kim şübhə etmir, bu ideyalar nə qədər yaşayacaqsa, ölkəmiz və xalqımız da bir o qədər irəli gedəcəkdir.

Heydər Əliyev ideyaları həmişə konkret ictimai-siyasi şəraitlə sıx surətdə bağlı olmuşdur. Onun Azərbaycanda dövlət quruculuğuna başladığı şərait isə qısaca desək, "keçid dövrü" kimi səciyyələndirilə bilər. **Dahi şəxsiyyət Heydər Əliyevin irəli sürdüyü və bir konsepsiya halına saldığı ideyalardan biri məhz "müstəqillik" anlayışı ilə bağlıdır. Bu konsepsiyaya görə, müstəqillik, heç də bəzilərinin başa düşdüyü kimi, ancaq siyasi müstəqillikdən, sərhədlərin toxunulmazlığından ibarət deyil. Bura həm də iqtisadi müstəqillik, milli maraqlara xidmət etmək müstəqilliyi daxildir.**

Dahi siyasətçi Heydər Əliyev, sadəcə, fəhmə və təcrübəyə əsaslanmış, bir sıra fundamental məsələlərlə bağlı fəaliyyətin metodologiyasını da işləyib hazırlamışdır. Məsələn, demokratikləşdirmə və təşkilatlanma proseslərinin nisbətində tarazlığın vacibliyi prinsipini irəli sürmüş və Azərbaycanda dövlət quruculuğu prosesində bu tarazlığın pozulmasına heç vaxt yol verməmişdir. Azərbaycanda dövlət müstəqilliyini və onun qorunub-saxlanılmasını hər hansı bir dəyərindən yüksək tutan dahi şəxsiyyət Heydər Əliyev demokratikləşməni də bu ali məqsəd çərçivəsində, onun təminatlarından biri kimi qəbul edirdi. Azərbaycanın müstəqilliyi Heydər Əliyevin bütün fəaliyyətinin və çıxışlarının ana xəttini təşkil edirdi.

Heydər Əliyevin çıxışları və əsərləri ilə diqqətlə tanış olsaq, görərik ki, onun ən böyük nailiyyət hesab etdiyi hadisə Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi vəzifə isə müstəqilliyin dönməzliyinin təmin edilməsi idi.

Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlət konsepsiyasının əsasını aşağıdakı əlamətlər təşkil edirdi: 1) Dövlət müstəqilliyi; 2) Demokratiya, siyasi plüralizm, şəffaflıq; 3) Hüququn aliliyi; 4) Sosial ədalət.

**Dövlət idarəçiliyi sahəsində Heydər Əliyev irsinin çox əhəmiyyətli cəhətlərindən biri də budur ki, o öz siyasətini heç bir zaman birtərəfli qurmurdu. Onun gördüyü işlər kompleks tədbirlər sistemindən ibarət idi. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar atırdı.** Hər il yüzlərlə azərbaycanlı ittifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, diplomatiya, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və texniki elmlər kimi mühüm elm sahələrinə təhsil almağa göndərilirdi.

Bu böyük şəxsiyyət yenidən Azərbaycanın idarəçilik sükanı arxasına keçdikdən sonra qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürmüş və onun icrasına başlamışdır.

Çağdaş milli dövlətçilik tariximizdə Heydər Əliyev irsinin özünəməxsus cəhətləri, taktiki və strateji hədəfləri, konkret məqsədləri var. Bu irs 1991-1993-cü illərdə cəmiyyətin gözündən düşmüş dövlət-hakimiyyət vəhdətinin həqiqi simasını özünə qaytardı. Dövlət quruculuğunun hüquqi bazasının yaradılması da Ulu Öndərin adı ilə bağlıdır.

Dahi şəxsiyyət Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi çox görkəmli sima, dövlət idarəçiliyi sahəsində son dərəcə böyük və təcrübəli siyasət adamı, dövlət xadimi idi. Heydər Əliyev Azərbaycanımızın, dövlətimizin tarixində

*Ardı 3-cü səhifədə*

həmişəlik qalacaq və həmişə anılacaq bir şəxsiyyətdir. Onun zəngin dövlətçilik təcrübəsi bu gün bütün dünyada etiraf olunur və hörmətlə qarşılanır, yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün Ukraynada Heydər Əliyev adına Sosial-Siyasi Elmlər İnstitutu təşkil edilib və Onun zəngin dövlətçilik təcrübəsi, siyasi irsi öyrənilir.

**Heydər Əliyev irsinin əhatəsi geniş və çoxcəhətlidir.** Bu irsin milli sərvətə çevrilməsi fenomenal şəxsiyyətin xalqın həyatında oynadığı tarixi xidmətlərin məntiqi nəticəsidir. Bununla yanaşı, milli dövlətçilik ənənələrinin dövrün, şəraitin tələblərinə uyğun sistemli inkişaf modelinə uyğun qurulması və bunun praktiki nəticələri gələcək nəsillər üçün irsi xarakter daşımaqla paralel potensial mahiyyət kəsb edir. Heydər Əliyev siyasi irsinin milli-ictimai şüurda yaratdığı təcrübənin xalqın taleyüklü problemlərində yeri cəmiyyətin müxtəlif təbəqələri idarəetmə sistemində də özünü göstərir.

Ulu Öndərimizin siyasi irsində demokratiya önəmli yerlərdən birini tutur. Demokratik dəyərlərə sədaqət Azərbaycan cəmiyyəti üçün əsas prinsiplərdən biridir. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın demokratik dəyərlərə söykəndiyini və demokratiyaya daim sadiq olduğunu xüsusi vurğulayırdı: ***"...Dövlətin inkişafı milli sərvətlərlə ölçülmür. Dövlət zəngin sərvətlərə malik ola bilər. Lakin dövlət əgər həmin sərvətlərə malik olub demokratik dəyərlərə söykənmirsə, onun inkişafı müvəqqəti xarakter daşıyacaq..."*** Dahi öndərin demokratiyaya milli maraqlar, milli-mənəvi dəyərlər kontekstində yanaşması və zəngin dövlətçilik təcrübəsi irsi xüsusi əhəmiyyət daşıyır. Ümummilli Liderimiz dəfələrlə bildirmişdir ki, Azərbaycan könüllü olaraq qoşulduğu demokratiya yolunun iqtisadi bazisə əsaslanan təkamül modelini alternativsiz inkişaf strategiyası hesab edir. Eyni zamanda Ulu Öndər tətbiq olunan hər hansı demokratik yeniliklərin xalqın milli xüsusiyyətləri, dünyagörüşü, ictimai şüur səviyyəsi ilə səsləşməsini vacib sayırdı: ***"Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə inqilabi yolla yox, təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir".***

**Ulu Öndər fenomen şəxsiyyətdir.** O, siyasətdən danışanda müsahibini dərin məntiqi ilə məftun edir, iqtisadiyyatdan söhbət açanda bu sahənin ən görkəmli mütəxəssislərini belə heyran qoyur, tarixdən, ədəbiyyatdan, mədəniyyətdən, elmdən bəhs edəndə dinləyicilərin qəlbinə hakim olurdu.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Heydər Əliyev şəxsiyyətini dəqiq müəyyən edib: ***"Heydər Əliyev kimi böyük bir tarixi simanın irsinin öyrənilməsinə üç başlıca mövqedən – Onun xalqına və ölkəsinə sonsuz sədaqət nümunəsi olan vətəndaş, qüdrətli şəxsiyyət və dövlət xadimi, nəhayət, bütün dünyada şəksiz lider kimi tanınması mövqelərindən yanaşmaq lazımdır".***

**Heydər Əliyev ömrü, sözün əsl mənasında, müdrik və mütəfəkkir insan ömrüdür.** Ağıl və müdriklik, qətiyyət və məğlubedilməzlik, milli dövlətçilik və Azərbaycançılıq bu insan ömrünün əsas əlamətləridir. O ulu şəxsiyyətin yüksək mənəvi büllurluğu, zəngin dövlətçilik səriştəsi, dəmir məntiqi, fenomenal yaddaşı, tükənməz enerjisi, həyatın ən gözəgörünməz nöqtələrini belə öz bəsirət gözlərilə görmək bacarığı, ən mürəkkəb hadisələri belə düzgün qiymətləndirmək və proqnozlaşdırmaq dəstxəti dünyanın ən görkəmli siyasi xadimlərini, ən məşhur tarixi şəxsiyyətlərini belə heyrətdə qoyub. Onu çox haqlı olaraq böyük dövlətçi, mahir diplomat, idarəçilik ustadı, zəka korifeyi adlandırırlar. Təsadüfi deyil ki, Z.Bjezinski Heydər Əliyevi "siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini dərhal çatdırmaq bacarığına malik misilsiz bir şəxsiyyət, bir sözlə, şəksiz lider", P.Volfoviç "həyatı dərindən öyrənilməyə layiq zəngin bir tarix", konqresmen Laflin "Asiya qitəsinin Corc Vaşinqtonu", R.Reyqan isə "Heydər Əliyevin iti ağlı, güclü məntiqi, fenomen yaddaşı olan qüvvətli bir şəxsiyyət, sözün həqiqi mənasında, kompüter insan" adlandırmışdı.

Heydər Əliyev siyasət nəhəngi olduğu kimi, Onun yaratdığı mənəvi irs də bitib-tükənməyən dəryadır. Bu dəryadan istənilən adam faydalana bilər: siyasətçi də, alim də, sənətşünas da, ədəbiyyat adamı da...

Nə qədər Heydər Əliyev rəhbər olaraq Azərbaycanın siyasi-mənəvi mühitində öz sözünü demək gücündə idi, bu vaxtdan və imkandan istifadə etdi, xalqa tarixi yaddaş mexanizmini yaşatmağın yollarını da öyrətdi. Əslinə qalsa, Heydər Əliyevin çıxışları və nitqləri zəngin mənəvi irs kimi zaman-zaman öyrəniləcək. Bundan başqa, Onun daha qiymətli bir irsi də var. Bu da yazıçılarla, sənətkarlarla, rəssamlarla ünsiyyət və münasibət baxımından formalaşmış, yaddaşlara yazılmış, artıq tarixi həqiqət olan irsidir.

**Heydər Əliyev mənəvi yaddaşın qarantıdır.** Onun zəngin və tükənməz mənəvi irsi, zəka məhsulu, yaradıcılığı, nitqləri və çıxışları, məqalələri, bir sözlə, bütün yaradıcılığı mənəvi yaddaşı qorumağın əsas vasitəsidir. Bu zəngin irsdən istifadə edən hər kəs öz xalqının taleyi uğrunda mübarizədə ən güclü silaha malik olacaqdır.

Heydər Əliyev irsinin zənginliyi və öyrənilməsi baxımından 1993-cü ildən sonrakı dövr daha böyük aktuallıq kəsb edir. Çünki Azərbaycanın müstəqillik illərini əhatə edən bu dövrün fakt və reallıqları Heydər Əliyev fenomenini bütün əzəməti ilə göz önündə canlandırır. Onun xarici səfərləri, beynəlxalq təşkilatlarda apardığı danışıqlar, Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətindəki fəaliyyəti, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətindəki məqsədyönlü işləri əhəmiyyətli nəticələrə gətirib çıxarmışdır. Ulu Öndərimizin gərgin diplomatik səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağla bağlı Azərbaycanın mövqeyini əks etdirən prinsiplərin 1996-cı ilin dekabr ayında 53 dövlət tərəfindən təsdiqlənməsi, xalqımız üçün mühüm tarixi əhəmiyyətə malik Lissabon sənədinin qəbulu münaqişənin həlli prosesində Azərbaycanın milli maraqlarını təmin edən diplomatik uğurlardandır.

**Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, hakimiyyət bölgüsü və demokratik təsisatların yaranması prosesinin müəllifidir.** Onun rəhbərliyi ilə dönmədən və ardıcıl şəkildə həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda müasir, sivil, azad iqtisadi sistemin əsası qoyulmuş, bunun sayəsində ölkə sənayesinə xarici investisiya qoyuluşu xeyli artmış, infrastruktur dəyişikliklərin miqyası nəzərəçarpacaq dərəcədə genişlənmişdir.

Ölkəmizin bugünkü sabit və dayanıqlı inkişafının təməlində məhz Ulu Öndərin ildən-ilə uğurla reallığa çevrilən ideyaları durur. Bu ideyalar müxtəlif islahatlar vasitəsilə reallığa çevrilir, həyatda öz təsdiqini tapır.

**Dahi şəxsiyyət Heydər Əliyevin misilsiz xidmətlərindən biri də milli birliyin şəksiz modeli kimi dövlətçilik düşüncəsinin formalaşmasına nail olmasıdır.** Ulu Öndər milli-irsi dəyərləri, əsrlərdən bəri yaşanan tarixi ənənələri müasir dövlətçilik kontekstində birləşdirən islahatların uğurla həyata keçirilməsinin təşəbbüskarı və himayədarı olmuşdur. Müasir Azərbaycan dövlətçiliyinin yaradıcısı və memarı olmuş Heydər Əliyev öz dühası ilə qarşıdakı bir çox onilliklər üçün xalqımızın və dövlətimizin hərtərəfli inkişafının və qüdrətlənməsinin istiqamətlərini müəyyənləşdirmiş, milli maraqların etibarlı qorunmasının tam həllinə yönələn qanunvericilik bazasının yaradılmasını təmin etmişdir.

**Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin modelini qurmuş və möhkəm siyasi-ideoloji əsaslarını yaratmışdır.** Azərbaycan Respublikasının dövlət ideologiyası olan Azərbaycançılıq təlimi Heydər Əliyev tərəfindən müəyyən edilmişdir. Millilik, dövlətçilik, müstəqillik və dünyəvilik görkəmli dövlət xadiminin dövlətçilik ideologiyasının əsaslarını təşkil edir. Azərbaycan dili, Azərbaycan xalqı və müstəqil Azərbaycan dövlətçiliyi anlayışlarından hər biri Heydər Əliyev tərəfindən müəyyən edilmiş Azərbaycançılıq ideologiyasının əsas atributlarındandır.

**Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycançılıq ideologiyasının elmi-nəzəri bazasının müasir dövrün tələbləri əsasında formalaşmasında mühüm rol oynamışdır.** Ulu Öndər demişdir: ***"Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır. Bu ideologiya bütün xalqın, dövlətin mənafeyinə uyğun olmalı, müxtəlif sosial təbəqələrin, siyasi partiyaların bir ideya ətrafında birləşməsinə yol açmalıdır".***

Görkəmli dövlət xadimi milli ideologiyamızın əsasını təşkil edən Azərbaycançılıq ideologiyasının əsas prinsiplərinin "dövlətçilik" və "milli vətənpərvərlik"dən ibarət olduğunu dəfələrlə vurğulamışdır. Onun söylədiyi ***"Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir, dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə də hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır"*** fikri hər bir azərbaycanlının qəlbinə hakim kəsilmişdir.

Azərbaycan dilinin dövlət dili statusu alması, onun bir ünsiyyət vasitəsi kimi bugünkü səviyyədə inkişaf etməsi, qrammatik elmi əsaslarının yaradılması, latın qrafikinə keçirilməsi məsələləri də dahi şəxsiyyət Heydər Əliyevin birbaşa xidməti sayəsində mümkün olmuşdur. Ulu Öndərin Azərbaycan xalqının və onun dilinin mənşəyi, formalaşması kimi məsələlərə çox ciddi əhəmiyyət verirdi. O, Azərbaycan dilinə xalqımızın əvəzsiz sərvəti, tarixi, mədəniyyəti, mədəni sərvəti kimi yanaşırdı. Bu dahi siyasətçinin səyi nəticəsində Azərbaycan dili Azərbaycan Konstitusiyasında dövlət dili statusunda təsbit olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan dili ilə bağlı 2001-ci ildə imzaladığı iki tarixi Sərəncam böyük əhəmiyyət kəsb etmişdir.

Xalqın böyük oğlu Heydər Əliyevin qədim tarixi adlarımızın bərpası, milli ziyalılarımızın qorunub saxlanılmasında mühüm xidmətlər göstərmişdir. Bunun nəticəsində Azərbaycanda milli oyanış baş vermiş, milli ruhun dirçəlməsinə səbəb olmuşdur.

**Ulu Öndərin Azərbaycan xalqı və dövləti, eləcə də Azərbaycançılıq ideologiyası qarşısında göstərdiyi çox mühüm xidmətlərdən biri də Azərbaycan diasporunun inkişaf etdirilməsi və təşkilatlandırılması olmuşdur.** Azərbaycan diasporunun formalaşmasında böyük rol oynayan bu tarixi hadisənin rəsmiləşdirilməsi də məhz dahi şəxsiyyət Heydər Əliyevin sayəsində mümkün oldu. 1991-ci il dekabrın 16-da o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyev 31 Dekabr Gününün Azərbaycan tarixinə Milli Həmrəylik Günü kimi daxil olmasının təşəbbüskarı oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Onun təşəbbüsü əsasında Milli Həmrəylik və Birlik Gününün təsis olunması ilə bağlı qərar qəbul edildi.

Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca meyarlar onun dili və milli-mənəvi dəyərləridir. Milli-mənəvi dəyərlər hər xalqın, millətin, şəxsin kimliyini ortaya qoyur. Milli-mənəvi dəyərlərə görə xalqlar bir-birindən fərqlənirlər.

Milli-mənəvi dəyərlər, onların qorunması, kənar və yabançı təsirlərdən xilas olması, saflaşması, Azərbaycan xalqının dəyərli sərvəti kimi mühüm amilə çevrilməsində böyük Öndərimizin uzaqgörən siyasəti, əməli fəaliyyəti, verdiyi fərman və sərəncamlar, keçirdiyi tədbirlər, apardığı görüşlər, beynəlxalq kürsülərdən söylədiyi tarixi nitqlər, gənc nəslin milli-mənəvi dəyərlərə yiyələnməsi üçün istiqamətləndirdiyi tədbirlər, özünün şəxsi nümunəsi əvəzsiz rol oynamışdır.

Dahi şəxsiyyət Heydər Əliyevin çox yüksək qiymətləndirdiyi milli-mənəvi dəyərlərin özü mürəkkəb daxili struktura malikdir. Burada böyük öndər üç tərkib hissəni xüsusi olaraq qeyd edirdi: dil, din, adət-ənənə. Bunların şüur müstəvisindən proyeksiya olan milli mentalitet. Bu elmi-nəzəri irsdə milli-mənəvi dəyərlərin mahiyyəti, tərkib hissələri və əhəmiyyəti haqqında kifayət qədər materiallar yer almışdır.

Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Ulu Öndər deyirdi ki, xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

**Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü.** Bunlarsız millət yoxdur. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz.

Ulu Öndər Heydər Əliyev 13 avqust 2001-ci ildə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı dəyərli bir bəyanat verdi. Həmin məşhur bəyanat xalqımızda böyük razılıq yaratdı. Bəyanatda Azərbaycan xalqının zəngin mədəni dəyərlərinin, çoxəsrlik tarixə malik adət-ənənələrinin, dünyanın ən qədim və sivil xalqları ilə müqayisə olunacaq mədəni irsinin bütün azərbaycanlılar tərəfindən qorunmasının zəruriliyi öz əksini tapmışdır.

Sovet rejimi xalqımızı öz dinindən və milli-mənəvi dəyərlərindən də uzaq salmışdı. Din xadimləri təqib olunurdular. Heydər Əliyevin siyasi irsində İslam dininin də öz yeri və mövqeyi vardır. **Böyük siyasi xadim Heydər Əliyev İslam dininin insan mənəviyyatını saflaşdırıcı xüsusiyyətlərindən və mənəvi emosional gücündən milli liderlik və bacarıq vasitəsi kimi səmərəli istifadə edilməsini Azərbaycançılıq məfkurəsinin fundamental prinsiplərindən biri kimi qiymətləndirirdi.** O, dinə və dindarlara ehtiramla yanaşır, milli-əxlaqi mentalitetdə İslam əxlaqi normalarının əhəmiyyətini yüksək qiymətləndirir, onların inkişaf etdirilməsinə, yayılmasına hər cür yardım edirdi.

Ulu Öndər Heydər Əliyev insan cəmiyyətində mənəviyyatı hər şeydən üstün sayırdı. Qeyd edirdi ki, əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlər nəinki təkcə müasir milli mövcudluğumuz, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilməlidir. Milli-mənəvi dəyərlərin mühüm komponentlərindən biri də milli adət-ənənələrdir. Milli adət-ənənə dedikdə təkcə xalqımızın uzun əsrlər boyu formalaşmış yaşam və davranış tərzi, milli bayramlar və mərasimlər, əxlaqi və mənəvi dəyərlər deyil, həm də milli dövlətçilik, idarəetmə ənənələri başa düşülməlidir.

Ümummilli Lider Heydər Əliyev milli adət-ənənəni həmişə tarixi kontekstdə öyrənməyi, bu günlə müqayisə etməyi, yaxşı örnəyi, xeyirli ənənəni yaşatmağı və inkişaf etdirməyi tövsiyə edirdi: ***"Biz öz tarixi köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik".***

Heydər Əliyev irsini ən yaxşı əxz etmiş siyasətçi və dövlət başçısı cənab İlham Əliyevin söylədiyi səciyyəvi fikirlər maraq doğurur: ***"Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq. Azərbaycanda bu siyasətin alternativi yoxdur".***

Göründüyü kimi, müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətindən qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

*Beləliklə, Ulu Öndər, qüdrətli dövlət xadimi Heydər Əliyevin çıxış və nitqləri, məqalə və tövsiyələri, müdrik fikirləri, daxili və xarici siyasətdə həyata keçirdiyi tədbirlər və bu tədbirlərdə etdiyi çıxışlar Onun siyasi irsini təşkil edir. Bu irs müstəqil Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və respublika əhalisi tərəfindən öyrənilir və tətbiq edilir. Heydər Əliyevin siyasi irsi bu gün də aktualdır və xalqımıza yeni-yeni uğurlar bəxş edir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Şəhid İbrahim Vəlizadənin büstünün açılışı olub



Şərur rayonunun Şəhidlər xiyabanında keçirilən tədbirdə əvvəlcə şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin əməkdaşı Pənah Mehdiyev Azərbaycan Ordusunun rəşadətindən bəhs edib. Bildirib ki, uzaqgörən siyasətçi, fenomenal şəxsiyyətin uğurlu missiyası bu gün Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra qəhrəman şəhidimizin ölümündən sonra aldığı "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları onun valideynlərinə təqdim edilib.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov və Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərovun çıxışları olub. Bildirilib ki, Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə gənclərimizin müqəddəs amalı Azərbaycan xalqının böyüklüyünü, müdrikliyini göstərir. İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıqla yad edəcəklər.

Tədbirdə digər çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi və Şanlı Ordumuzun qüdrəti ilə 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbədən fəxarətlə bəhs ediblər.

Sonda şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

**Xəbərlər şöbəsi**

# Həqiqətin güzgüsü olan mətbuatımıza həqiqət carçısı ilə birgə baxış

## Həsən bəy Zərdabi ilə məzarüstü söhbət (monoloq-müsahibə)

*Bəlkə də, Uca Yaradanın bəşəriyyətin cövhəri sayılan, yaradılmışların alisi olan insana verdiyi ən gözəl nemətdir söz. Xoşbəxtdir o kəs ki daim saf əməlləri, xeyir işləri, doğru sözləri, xalq yolunda şam kimi əriyən ömrü ilə dünyada iz buraxıb. Bu ünvanı qarış-qarış gəzənlər yaxşı bilir ki, cismani ayrılıqları ilə əbədi həyata köçən, əbədiyaşarlıq qazanan Fəxri Xiyabanın fəxri “sakinləri” “izlə getsən, izin olmaz, çalış bu həyatda özün iz sal” həqiqətini duymaqla yaşayıb, yaradıblar. Azad, müstəqil Azərbaycanımızın sönməz Əbədi Günəşi, xalqımın Ulu Öndəri, daha sonra adları tarixə həkk olan, əsrlərin sınağından üzüağ çıxan, Vətəninin, xalqının, millətinin ən çətin anında səsinə səs verən mübarizlər, fədailər, azadlıqdır yaramıza məlhəm, əqidəmizə şəfa söyləyənlər… Bu fikirlərlə həqiqi sözün özü olan “Əkinçi” ilə maarif toxumunun ilk ziya cücərtilərini ruhlara, təfəkkürlərə bəxş edən böyük maarifpərvər ziyalı Həsən bəy Zərdabinin “hüzurundayam”. Söz xiridarının, millət cəfakeşinin ruhu ilə baş-başa qaldığım dəqiqələrdə, o sanki müdrikliklə ürəyimdən keçənləri duyub düşündüyüm mətləblərdən özü agah etdi məni.*

***– Əziz ustad, “Əkinçi” qəzetinin ilk nömrəsində yazmışdınız “…dünyanın gərdişinə görə gərək insan da öz rəftarını dəyişsin”. Dünyanın yamanlığına aldanıb, rəftarını dəyişənlər, doğru sözü inkar edib unudanlar azmı olub?***



– Əvvəlcə bütün mətbuat fədailərinə, qələmin qüdrətinə sığınıb kamil sözü özünə həyat amalı seçənlərə salamlarımı çatdırıram… Həqiqət nuru sanki zülmət gecələrdə sayrışan, təkcə bir kütləyə deyil, bütöv bəşəriyyətə düzgün yolu göstərən mayak kimidir. Necə ki ucsuz-bucaqsız dəryada bir zərrəni xatırladan gəmiyə mayak yol göstərər, həqiqətin özü də belədir. Sözsüz ki, düzgünlüyü, düzgün sözü, həqiqəti inkar edənlər tarixin bir küncündə, elə məkrli niyyətləri ilə yox olmağa, unudulmağa məhkumdurlar. O ki qaldı əksər insanların bizim sözlərimizi, tarixi gerçəkləri inkar etməyinə, unutmağına; onlara layiq olduqları cavabı elə zamanın özü verəcəkdir. Necə ki bir zamanlar “Əkinçi”nin haqq şüarını, “Molla Nəsrəddin”in “biçarə xalqım” sədasını unutdurmağa çalışanlar bu gün yox oldular, həqiqətin üstünə qara pərdələr çəkən qüvvələrin də aqibəti, sözsüz ki, elə olacaqdır.

***– Ustad, “Əkinçi” adını hər eşitdikdə qəlbimiz, ruhumuz riqqətə gəlir sanki. Milli mətbuatımızın əsasını qoymaq, qəzet nəşr etmək üçün göstərdiyiniz səyləri, çəkdiyiniz zəhmətləri necə inkar etmək olar? Həm də bu hadisənin XIX əsrin Azərbaycanında baş verdiyini düşünəndə hadisəyə baxışımız da tamam dəyişir…***

– Sözügedən dövr yalnız Azərbaycan üçün yox, Vətənimizin hüdudlarından kənarda yaşayan soydaşlarımız, bir sözlə, bütün Türk dünyası üçün də çətin və məşəqqətli idi. Bir tərəfdən çar Rusiyasının qatı xristianlaşdırma, ruslaşdırma siyasəti, digər tərəfdən də molla üsuli-idarəsinin hökm sürdüyü Şərq xalqlarında baş verən gerilik və nadanlıq sanki xalqımızın düşünən beyinlərinin, təfəkkür sahiblərinin yarasına duz basırdı. Belə bir şəraitdə dövri nəşr yaratmaq, Vətənimizin hər bir yerində elmə, maarifə təşnə olan insanlara ümid çırağı olmaq yeganə məqsəd idi. Düzdür, “Əkinçi” qəzeti nəşr olunduğu tarixdə Qafqaz regionunda bir sıra qəzetlər çap olunurdu. Hətta müntəzəm olaraq “Azərbaycan” adlı qəzet də oxucularla görüşürdü. Lakin Azərbaycançılıq ideologiyasını təbliğ etmək, insanlara düzgün yol göstərmək, necə deyərlər, xalqın səsi olmaq baxımından “Əkinçi” qəzeti bizim imdadımıza yetişdi, gözlərimizə nur, millətimizə hidayət çırağı oldu.

***– Mətbuat tarixindən də bildiyimiz kimi, “Əkinçi” qəzeti ağır maddi çətinliklərə rəğmən dövrün hakimiyyətinin təzyiqləri, təqibləri ilə mübarizə apararaq işıq üzü görürdü…***

– XIX əsrin birinci yarısında baş verən bir sıra tarixi hadisələr, xüsusilə 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələrinin imzalanması Azərbaycan xalqının milli təfəkkürünün inkişafına təkan verdi. Azərbaycanın iki yerə bölünməsi, hər hissəsinin bir dövlətin müstəmləkəsi altında yaşamağa məhkum edilməsi milli azadlıq duyğularını gücləndirməyə başladı. Digər tərəfdən, XIX əsrin, xüsusilə ikinci yarısında Rusiyanın ictimai-siyasi həyatında baş verən mühüm hadisələr, 1861-ci ildə Rusiyada təhkimçilik hüququnun ləğvi onun təbəəliyində olan ölkələrdən biri kimi Azərbaycana təsir göstərdi. İqtisadi və ictimai inkişaf milli mətbuatımızın yaranmasını zəruri etdi. Bu şəraitdən istifadə edib qəzet nəşri üçün mən çar hökumətinə müraciət etdim. Təbii ki, Azərbaycan xalqına olan ögey münasibət üzündən bütün səylərimiz ilk vaxtlar nəticəsiz qaldı. Daha sonra qəzetin adının “Əkinçi” olacağını, guya bu qəzetdə yalnız əkin və ziraət xəbərləri verəcəyimizi çar hökumətinə bildirdikdə, çox çətinliklə də olsa, razılıq aldım.

***– Hətta xalqımıza xidmət etmək üçün öz ülvi məhəbbətinizdən belə əl çəkməli oldunuz. Hansı ki, bəlkə də, hələ tələbəlik illərindən çar Rusiyasında qazandığınız şəxsi nüfuzun, ali təhsil ocağınızdakı hörmət və ehtiramın ardınca getsəydiniz, vəziyyət tamam başqa olardı, ustad…***

– Doğrudur.. Moskva Dövlət Universitetini namizədlik dissertasiyası ilə başa vurmaq, ali təhsil ocağının rektoru Solovyov ilə şəxsi münasibət qurmaq, habelə onun qızını həqiqi məhəbbətlə sevmək, əlbəttə ki, mənim üçün böyük yollar açırdı. Lakin mən bu yolu tuta bilməzdim. Əgər getsəydim, mən o zaman xalqımın, millətimin haqq sədası, doğru sözü olmazdım, bir sözlə, o zaman tarixdə yaşamış Həsən bəy Məlikov olar, Həsən bəy Zərdabi olmazdım. Sözümü düzgün qəbul edin, mən öz ülvi məhəbbətimi belə sizlərə, bütün Azərbaycan xalqına görə geridə buraxıb Vətənimə gəlmişdim. Səbəb də sadə idi; heç bir türk-müsəlman ilk alitəhsilli azərbaycanlı gənc oğlanın xristian mədəniyyətində böyümüş bir qızla ailə həyatı qurduğunu qəbul etməzdi, onun sözlərinə qulaq verməzdi, inanmazdı. Mənim üçün tək çıxış yolu bu idi; xalqın məhəbbətini öz şəxsi mənafeyimdən üstün tutmaq...

***– Böyük çətinliklərlə, əzab-əziyyətlərə rəğmən “Əkinçi” qəzetini iki il müddətinə nəşr etmək imkanınız oldu. Çar Rusiyasının tək dərdi qəzetin bağlanması idisə bəs***



***onda nə üçün qəzet bağlandıqdan sonra sizi Vətəndən sürgün etməyə cəhd etdilər?***

– “Əkinçi” qəzeti hələ nəşr edildiyi dövrlərdə çar Rusiyası azərbaycanlı ziyalılarla barışmaz mövqe sərgiləyirdi. Qatı düşmənçilik meyillərini sətiraltı yox, elə açıq şəkildə edir, qəzetdə gedən mövzulara, məqalələrə senzorlar tətbiq edir, yaxud da dolayı yollarla əhli-qələmi şərə, böhtana tutmaqla mayası vətənpərvərlikdən yoğrulan işimizə maneçilik törədirdi. Bu illər çətin idi, çox ağır idi. Təsəvvür edin, qəzet çıxarmaqla yanaşı, vaxtımız məmləkətimizin aciz,köməksiz, gələcəyi hansısa rus çinovnikinə, qubernatoruna nökər olacaq uşaqlara dərs deməklə keçirdi. Mətbuatla yanaşı, çar hökuməti azərbaycanlıların savad sahibi olmasına da maneçilik törədirdi. İlk vaxtlar dərsləri şəxsi evimizdə keçirdik. Çətin olsa da, yeganə amalımız, məqsədimiz bu idi – Azərbaycan xalqını savad sahibi etmək. Hətta vəziyyətim o həddə gəlib çatdı ki, qapı-qapı gəzib maarifpərvər insanlardan müəyyən qədər vəsait toplayıb, onunla da müdavimlərə kitab, dəftər alırdım.

***– Bəs üzünüzə qapı açıb səsinizə səs verən, köməyinizə çatan olurdumu?***

– Mənim üçün çox ağırdır bunu demək (məyus halda gülümsəyir)... Bəli, üzümə qapı açıb harayımıza çatan da olurdu, qarşısında səhərdən axşamacan Bakı küçələrində gəzib maarif üçün qəpik-quruş toplayan, taqətdən düşmüş Həsən bəyi görüb ona dilənçi gözü ilə baxan da olurdu. Hətta bir gün yenə Bakı küçələrində “xeyirxahların” mənə olan “səmimi münasibətini” düşünə-düşünə gəzərkən bir nəfərin məni arxadan səslədiyini hiss etdim. Bir anın içində özünü mənim yanıma çatdıran bu şəxsin hambal olduğunu gördüm. Əlləri qabarlı, üzü-gözü daş karxanalarında qaralmış bu ortayaşlı şəxs üzündəki utancaq, çəkingən ifadə ilə salam verib belə söylədi: “Eşitmişəm bizim uşaqları oxutmaq üçün pul yığırsınız. Mən bir az qazanmışam. Budur, götür. Bilirəm, azdı, amma ürəkdəndi. Yerimdə donub qalmışdım. Nə deyəcəyimi, onun bu az, amma mənəviyyatca böyük addımının qarşılığını necə verəcəyimi bilmirdim. Bilirsiz, mayası, qayəsi vətənpərvərlikdən yoğrulan bir əməlin böyüyü-kiçiyi olmur ki...Təqribən, bir dəqiqə davam edən bu sükutdan sonra fəhləyə belə dedim: “Çox sağ ol, dostum, əzizim! Sən mənə o qədər pul verdin ki, onu mən həyatımda heç kimdən almamışam. Çünki sən nəyin varsa, hamısını verdin”. Bəli, belə söyləyib həmin pulu hambala qaytardım. O bu addımı ilə, əslində, cibindən yox, daş karxanalarının qara tüstüsündə yorulmuş o pak qəlbindən, ürəyindən bütün Azərbaycan xalqına pay vermişdi... Çətin də olsa, heç vaxt yorulmadım xalqıma xidmət etməkdən. Çünki sinif otağında bir müdavimdən “Mənim milliyyətim azərbaycanlıdır, Azərbaycan türküdür, Vətənim isə Azərbaycandır” kəlmələrini eşidəndə yolumuzun haqq yolu, millət yolu olduğunu duyub fəxr edirdim.

***– Bütün bu əməllərin qarşısını almaq üçün hakimiyyət bitib-tükənməyən məkrli addımlara əl atırdı. Hətta sizə 16 il sürgün həyatı yaşatmaqları da xalqımıza qarşı qəddar siyasətin, acımasızlığın nəticəsi deyilmi?..***

– Həsrət, hüzn və kədərlə keçən 16 il… Amma bu illər ərzində belə yenə də mətbuatdan uzaq düşməmişdim. Mütəmadi olaraq cəmiyyətdə baş verən ictimai-siyasi hadisələrdən mövzular işləyir, onları Bakıda, Tiflisdə nəşr olunan qəzetlərə göndərir, bu yolla səsimi soydaşlarımıza çatdıra bilir, mübarizəmi bu yolla davam etdirməyə çalışırdım. İş o həddə gəlib çıxmışdı ki, çar üsuli-idarəsinin diktəsi ilə şəxsiyyətimə qarşı da tənqidlərə yol verilir, məni gözdən salmağa çalışırdılar. Bunun üçün Rusiyada təhsil aldığım üçün mənim ruslaşdığımı, rus siyasətinə meyil etdiyimi hər vəchlə yayırdılar. Amma yaxşı bilirdilər ki, tək mən yox, “Əkinçi” qəzetinin nuruna toplanmış heç bir azərbaycanlı ziyalı rus hakimiyyətinə meyil etmədi, onların alçaq itaətinə boyun əymədi...

***– Bu qədər cəfa haqq sözümüzü yalnız iki il ayaqda saxlaya bildi. İki ildən sonra çar Rusiyası “arzusuna çatdı”, “Əkinçi” qəzetinin fəaliyyətinə xitam verildi. Səbəb olaraq isə bir bayatı əsas gətirildi. Elə deyilmi, ustad?***

– Elədir. Qəzetin sonuncu 56-cı sayında bir bayatı nümunəsini çap etmişdik. Bayatının son beytində belə bir ifadə var idi: “Qarğalar laçın oldu, laçınlar qarğalandı”. Çar Rusiyası da bu sözləri bəhanə gətirib protokol tərtib etdi ki, guya bu bayatı o illərdə baş verən rus-türk münaqişəsinə ünvanlanıb. Bayatıda adıçəkilən “laçın” kəlməsi türk, “qarğa” kəlməsi isə rus xalqını təmsil edir. Beləcə, “Əkinçi” qəzetinin fəaliyyətinə son verildi. Ancaq bu da bir həqiqətdir ki, “Əkinçi” qəzeti fəaliyyət göstərdiyi iki ildə özünün müqəddəs amalına – xalqın maariflənməsinə ləyaqətlə xidmət etdi. O, qısa bir zamanda xalq maarifi və mədəniyyətinin, ana dilli məktəblərinin böyük carçısı oldu. “Əkinçi” bağlansa da, onun əkdiyi maarif, elm və mədəniyyət toxumları öz bəhrəsini verdi: yeni-yeni məktəblər açıldı, qəzetlər yarandı...

***– Əziz söz xiridarımız, böyük ustad! Düşünürəm ki, oxucularımız onlara olan arzularınızı elə sizin dilinizdən eşitmək istəyir...***

– Bu gün azad, müstəqil və qalib bir ölkənin azad söz carçılarına həsəd və fəxarət hissi ilə bu fürsətin dəyərini bilin, ölkənin rifahı, millətin tərəqqisi üçün qələminizə daha bərk-bərk sarılıb azad sözün mübarək ziyasına sığının deyirəm. Qəzetin gücünü dərk edib onun nuru ilə ziyalanan hər kəsə kamil sözün qüdrətini bilməyi, hər zaman doğru yolu tutmağı arzu edirəm. Qələminiz daim həqiqətdən ilham alsın deyirəm!

***– Halalik, ustad, mübarək ruhun şad olsun! Əməllərin biz söz və qələm əhlinin yoluna hər zaman nur saçacaq! Heç zaman unudulmayacaq o uca adına dərin hörmət və ehtiramla…***

**Məcid RƏŞADƏTOĞLU**

## Sahibkarlarla görüş



Naxçıvan Biznes Mərkəzində Azərbaycan Korporativ İş Adamları Birliyinin sahibkarlarla görüşü təşkil olunub. Əvvəlcə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Xudakərim Məmmədov görüşün məqsədi haqqında iştirakçılara məlumat verib.

Sonra Azərbaycan Korporativ İş Adamları Birliyinin icraçı direktoru Vəfadar Babayev təmsil etdiyi qurumun fəaliyyət və məqsədləri haqqında danışıb.

Qeyd edilib ki, Azərbaycan Korporativ İş Adamları Birliyi son dövrdə korporativ idarəetmə sahəsində mövcud problemləri nəzərə alaraq təlimlərin, diskussiyaların, sosial şəbəkələrdə müzakirələrin və digər məsələlərin icrası üçün geniş imkanlar yaradıb.

Görüşdə, həmçinin tərəfdaş sahibkarlararası kommunikasiyanın təkmilləşdirilməsi, marketinq və satış əlaqələrinin genişləndirilməsi, yaxın zamanda yaradılacaq Özbəkistanda Azərbaycan Ticarət Evinin və Azərbaycanda Polşanın Ticarət evləri vasitəsilə məhsul və xidmət mübadiləsinin artırılması imkanları müzakirə olunub.

## Test imtahanı keçirilib



Oktyabrın 8-də Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət qulluğu vəzifələrinin B növünə aid olan BB və BA altqruplarına uyğun vəzifələr üzrə test imtahanı keçirib. İmtahanda, ümumilikdə, 2079 namizəd iştirak edib.

Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə keçirilən imtahanda 259 namizəd iştirak edib. 21 zalda təşkil edilən imtahanın idarə olunmasına 3 rəhbər, 25 nəzarətçi ayrılıb. İmtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib. Namizədlərə 100 test tapşırığı təqdim olunub. İmtahanın rahat keçməsi üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, qəbul imtahanının nəticəsi elan olunub.

**Xəbərlər şöbəsi**

## Sahibkarlar beynəlxalq sərgiyə dəvət olunur

Cari ilin 25-28 oktyabr tarixlərində Omanın Muskat şəhərində 1-ci Beynəlxalq Xurma və Bal Sərgisi keçiriləcək. Naxçıvan sahibkarları sözügedən tədbirdə iştirak etməyə dəvət olunur.

Omanın Milli İnkişaf və İnvestisiya Şirkəti tərəfindən keçiriləcək ilk Beynəlxalq Xurma və Bal Sərgisində yerli və xarici bal istehsalçıları, o cümlədən yerli fermerlər və KOB-ların məhsulları nümayiş olunacaq.

Builki sərgidə iştirak etmək istəyən sahibkarlar aşağıdakı elektron poçt və ya telefon vasitəsilə əlaqə saxlaya bilərlər:

***E-mail: info@neconomy.gov.az***
***Telefon: (055-883-40-87)***
***Əlaqələndirici şəxs: Rza İbrahimli***

### İtmişdir

Sədərək rayonu, Sədərək kəndində yaşamış Cəfərov Fərman Qafar oğlunun adına verilmiş JN-757 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbəsində Səfərov Vurğun Cabir oğluna məxsus A-033864 inventar nömrəli torpağın plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Sərxanlı kənd sakini Nəcəfova Solmaz Əli qızının adına olan JN-90$^{A}$ inventar nömrəli, “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayon Kültəpə kəndində yaşamış Namazova Xeyrənsə Hüseyn qızının adına olan JN-223$^{A}$ inventar nömrəli, 10308028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 603